

Türkan Zamanova

## BİRÜZLÜ QƏPİK

Ovcunu gözlərimə yaxınlaşdırma, qadın!
Mən pulu azadlığa dəyişən adamam.
Çək incik baxışlarını gözlərimdən
Yolumu daha da qısaltma, qadın!
Mən pulu heçliyə dəyişən adamam...

İstəmə məndən əllərimi, qaraçı qadın!
"Boşdur" əllərim,
mən əllərinin cizgiləri silinmiş adamam.
İnadkar olma belə, qaraçı qadın!
Tapa bilməzsən məni.
Mən öz taleyində itmiş adamam...

Ölmüş anasının həkimə getdiyinə inanan
uşaq kimi ümidlə
çox atdım dualarımı atan kimi
qəpiyimi göylərə
seçdiyim tərəfi düşsün deyə.
Yorma daha özünü,
qəpiyinin eyni imiş hər iki üzü...

## GEDƏNLƏR

Dodaqlar utanar bəzən
deyilməli olan sözlər
məhbəs həyatı yaşayar...
Zaman küsüb gedər.
Sözlərin yerinə
bir anlıq həyatlar dilə gələr
saralar, bozarar
amma
əsl sevgilər fotolarda olar
yenə də
gedənləri saxlamaz yolundan...
Xəyallar milyon illər keçmişə sürgün edilər
itər-batar zamanın tozunda.
Gedənlər aparar özləri ilə
gülümsəməyi
sevinməyi
yaşamaq hünərini
gələcək günlərinə bilet əvəzi...
Gedənlər bilməzlər
bütün gözəlliklərin
körpə bir uşağın göz yaşlarına dəymədiyini
bomjun acından ölsə də dilənmədiyini
sevgisiz cənnətin belə mənasız olduğunu...
Gedənlər bilməzlər
çox şeyi,
bilmədikləri üçün də gedərlər...

## YAYDA YAY FƏSLİNİ ARZULAMAQ

Yayda istiyə dözməyin
bəlkə də ən asan yoludur ayrılmaq.
Dostlardan, doğmalardan, sevdiyindən
əsas da özündən.
Hər şeyin yaxşı olacağını vəd etmək,
"Hələlik" deyib
söylədiklərinin doğru olduğuna sübut kimi
gülümsəmək.

Bu şirin yalandan utanıb
hələ ayrılmamış bağışlanma diləmək
ürəyində...

Hərdən də
soyuğa dözməyib
nəfəslə qızdırmaq əlləri
qalın şala bürümək çiyinləri...
Yayda yay fəslini arzulamaq.

Eh, bəlkə də isti bəhanədir.
Gözləyin məni əzizlərim,
Mütləq gözləyin.
Mən də gözləyirəm
Sizlərçün darıxmağı.

## SƏN

Sən
bir yığın çiliklənmiş
yarımçıq cümləsən.
Nə bitirmək
nə də birləşdirmək
keçir könlümdən....

Sən
uzun saçlarımda dolaşıb qalmış
bir ovuc baxışsan.
Artıq saçlarımı kəsmişəm...

Sən
dodaqlarımdan
qopub düşən
təbəssüm parçalarısan.
paylamışam səni
Parça-parça
tez-tez qarşımı kəsən
donuq gözlü
dilənçilərə...

İndi nə var olmağa hazırsan,
nə də yoxluğa qovuşmusan.
Sadəcə
çox uzaqlarda,
sonsuzluqda
üfüqün dənizə birləşdiyi yerdəsən....